# Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın təxribatı nəticəsində həlak olmuş hərbçilərimizin doğmalarına başsağlığı verib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş hərbçilərimizlə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş əsgər və zabitlərimizin doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların ailələrinə səbir versin! Yaralıların tezliklə sağalmasını diləyirəm. Uca Tanrı Vətənimizi qorusun!"

---

Azərbaycan.- 2021.-18 noyabr.- S.1.